

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 202 (20.856)

29 oktyabr 2013-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortu qəbul etmişdir.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort yenidən Prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini və Avropa Olimpiya Komitəsinin icraedici komitəsinin üzvü Spiros Kapralosu qəbul etmişdir.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki yenidən Prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, ölkəmizdə sürətli iqtisadi inkişaf proseslərinin, idman infrastrukturunun daha da genişləndirilməsi istiqamətində böyük işlərin görüldüyünün şahidi olduğunu məmnunluqla qeyd etdi. Görüşdə Azərbaycanda idmanın müxtəlif sahələrinin inkişaf etdirilməsi ilə bağlı görülən işlərin önəmi vurğulandı, 2015-ci ildə Bakıda keçiriləcək birinci Avropa Oyunlarına hazırlıq işləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatlarına həsr olunmuş beynəlxalq seminar öz işinə başlayıb

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dəstəyi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Azərbaycan Hüquqşünasları Konfederasiyası, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və Almaniya Federal Ədliyyə Nazirliyinin Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun təşkilatçılığı ilə Naxçıvan şəhərində “Naxçıvan Muxtar Respublikasında aparılan məhkəmə-hüquq islahatları: hakimlər üçün Avropa İnsan Hüquqları Konvensiyasına dair (Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci və 6-cı maddələrinə xüsusi diqqət yönəldilməklə)” ikigünlük Beynəlxalq Seminara start verilib.***



Beynəlxalq seminarın açılış mərasimindən əvvəl qonaqlar ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin Əcəmi seyrangahındakı büstü önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Naxçıvan şəhərindəki “Təbriz” mehmanxanasında davam etdirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov açıb. Bildirilib ki, ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə ölkəmizdə demokratik dəyərlərin inkişafına xidmət edən məhkəmə-hüquq sistemində ardıcıl olaraq aparılan islahatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkənin məhkəmə orqanları sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində böyük nailiyyətlər əldə olunur.

Ramiz Süleymanov qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanının böyük rolu olub. Fərmanın qəbul edilməsindən sonra ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqları sayəsində muxtar respublikada hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılıb, məhkəmə orqanlarının müasir texniki avadanlıqlarla təchiz edilməsi ilə bağlı bir sıra işlər həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ***“Hüquqi cəhətdən maariflənmiş cəmiyyətdə yaşamaq da, işləmək də asan olar”*** fikrini xatırladaraq muxtar respublikada insan hüquqları sahəsində görülən işlər və əldə olunan nailiyyətlər, yaradılmış yeni hüquq institutları və onların fəaliyyəti barədə məlumat verib, seminarın işinə uğurlar arzulayıb.

Azərbaycan Hüquqşünasları Konfederasiyası İdarə Heyətinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli tədbirin yüksək səviyyədə təşkil olunmasına verdiyi dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova bütün təşkilatçılar adından minnətdarlığını bildirib. O, Naxçıvan Muxtar Respublikasında məhkəmə-hüquq islahatlarının çox yüksək səviyyədə həyata keçirildiyini qeyd edərək qanunun aliliyinin qorunması istiqamətində aparılan işləri yüksək qiymətləndirib. Əli Hüseynli beynəlxalq seminarın əhəmiyyətindən bəhs edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin hakimlərinin və hüquq-mühafizə orqanlarının nümayəndələrinin iştirak etdiyi konfrans insan hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi baxımından çox əhəmiyyətlidir.

Almaniya Federal Ədliyyə Nazirliyinin Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun Cənubi Qafqaz üzrə layihə rəhbəri Tereza Talhammer çıxış edərək belə bir mötəbər beynəlxalq tədbirin Naxçıvanda keçirilməsindən və özünün də ilk dəfə Naxçıvanda olmasından məmnun qaldığını bildirib, göstərilən qonaqpərvərliyə və seminarın çox yüksək səviyyədə təşkilinə görə bütün təşkilatçılar adından minnətdarlıq ifadə edib.

Sonra “Konvensiyanın yaranma tarixi, məzmunu və beynəlxalq hüquqi əhəmiyyəti”, “Fərdi şikayətlər və bu şikayətlər üzrə icraat”, “Konvensiya pozuntusunun yoxlanılması qaydası” mövzuları ətrafında məruzələr dinlənilib. Mövzular üzrə məruzələrlə hüquq elmləri doktoru, professor, Avropa Şurasının İşgəncələrin, qeyri-insani və alçaldıcı rəftarın qarşısının alınması üzrə komitəsinin sədri, Milli Məclisin Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri, AHK İdarə Heyətinin üzvü Lətif Hüseynov, Federal Publik İdarəçilik İnstitutunun publik hüquq (dövlət və Avropa hüququ) üzrə professoru, Prof.Dr.Mixaela Vittinqer çıxış ediblər.

“Avropa İnsan Hüquqları Konvensiyasının dövlətdaxili məhkəmələr üçün əhəmiyyəti”, “Konvensiyanın dövlətdaxili hüquq sistemi üçün əhəmiyyəti və qanunvericilik sistemində iyerarxiya baxımından tutduğu yer”, “Avropa İnsan Hüquqları Məhkəməsi qərarlarının məcburiliyi və təsiri” mövzularına həsr olunmuş növbəti çıxışlarda hüquq elmləri doktoru, professor, AHK İdarə Heyətinin üzvü Lətif Hüseynovun, Almaniya Federal İnzibati Məhkəməsinin sabiq hakimi, tərkib sədri Dr.Otto Mallmannın, AHK İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Qüdrət Həsənquliyevin, AHK İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Fazil Mustafanın məruzələri dinlənilib.

Beynəlxalq seminarın nahardan sonrakı hissəsində Federal Publik İdarəçilik İnstitutunun publik hüquq (dövlət və Avropa hüququ) üzrə professoru xanım Prof.Dr.Mixaela Vittinqerin və Almaniya Federal İnzibati Məhkəməsinin sabiq hakimi, tərkib sədri Dr.Otto Mallmannın “Avropa İnsan Hüquqları Konvensiyasında nəzərdə tutulmuş konkret təminatlar”, “Konvensiyanın qoruma sferası, oradakı normaların tətbiqindən istisna hallar (nəzərdə tutulan hallarda)”, “Konvensiyanın praktik əhəmiyyəti (Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsindən praktik misallara istinad olunmaqla)”, “Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsi: azadlıq və təhlükəsizlik hüququ. Bu normanın qoruma sferası (bu hüquqa müdaxilələrin yol verilməsi; saxlama və azadlığın məhdudlaşdırılması üçün şərtlər; təcili olaraq hakim qarşısına çıxarılma; seçilmiş həbs qətimkan tədbirinin hakim tərəfindən yoxlanılması)” adlı məruzələri dinlənilib.

Daha sonra mövzular ətrafında müzakirələr aparılıb. Bununla da, tədbirin ilk günü başa çatıb. Beynəlxalq seminar bu gün öz işini davam etdirir.

Qeyd edək ki, seminarda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, birinci instansiya məhkəmələrinin sədr və hakimləri, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Daxili İşlər və Ədliyyə nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının əməkdaşları iştirak ediblər.

Həmin gün qonaqlar muxtar respublikamızın tarixi abidələri, gəzməli-görməli yerləri ilə tanış olublar.

**Muxtar MƏMMƏDOV**

# Muxtar respublikada taxıl əkini davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın qəbulundan ötən müddət ərzində muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər öz bəhrələrini vermiş, xeyli nailiyyətlər, uğurlu nəticələr qazanılmışdır. Bu nailiyyətləri taxıl istehsalı sahəsində də görmək olar. Göstərilən dövlət qayğısı hesabına ötən ilin payızında əkilmiş 35 min 324 hektar taxıl əkini sahəsindən 102 min 960 ton taxıl istehsal olunmuş, məhsuldarlıq 29,1 sentnerə çatdırılmışdır. Qazanılan uğurdan ruhlanan torpaq mülkiyyətçiləri 2014-cü ilin bol və keyfiyyətli taxılının əsasını qoymaq üçün əkin kampaniyasını uğurla davam etdirirlər. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, taxıl əkini kampaniyasının mütəşəkkil şəkildə başa çatdırılması üçün əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri özünü göstərir. Qeyd edək ki, sahələrə kifayət qədər texnika çıxarılmışdır. Onların yanacaq və ehtiyat hissələri ilə təchizatı da diqqət mərkəzindədir.

Şumun keyfiyyətli aparılmasının bol məhsul üçün vacib şərtlərdən biri olduğunu unutmayan mexanizatorlar şum qaldırılmasında bu amilə ciddi diqqət yetirirlər. Əkin zamanı taxılçılar məhsuldar toxum sortlarından istifadəyə və şırım üsulu ilə əkinə üstünlük verirlər. Bu da belə qənaət yaradır ki, gələn təsərrüfat ili də taxılçılarımız üçün uğurlu illərdən biri olacaq.

Nazirlikdən verilən operativ məlumata görə, oktyabr ayının 28-dək muxtar respublikada 13 min hektar sahədə şum qaldırılmış, 6 min hektar sahədə əkin aparılmış, əkilmiş sahələrin 2698 hektarı suvarılmışdır. Payızlıq taxıl əkini kampaniyası sürətlə davam etdirilir.

# Kurs başa çatıb

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsində muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatlarının, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə keçirilən “Elektron ödəniş məkanının formalaşması və ödəniş alətləri ilə iş” mövzusunda ikigünlük kurs oktyabrın 26-da başa çatıb. Məlumat üçün bildirək ki, kursun məqsədi muxtar respublikada yüksək ödəniş mədəniyyətinə malik olan cəmiyyətin formalaşdırılmasına, hesablaşmalarda nağdsız ödənişlər üzrə dövriyyənin inkişaf etdirilməsinə, elektron ödəniş xidmətlərinin çeşidinin effektivliyinin tətbiqi dairəsinin genişləndirilməsinə və istifadəsinin kütləviliyinə nail olmaqdan ibarət idi.

Tədbirdə Azərbaycan Bank Tədris Mərkəzinin ekspertləri Ramil Mahmudov, Cəlal Orucov və Nicat Məmmədli nağdsız ödəniş xidmətlərinin əhəmiyyəti, təsərrüfat subyektlərində POS-terminalların qoyulması, habelə innovativ və yüksəkkeyfiyyətli xidmətlərin tətbiqi ilə bağlı çıxışlar ediblər.

Kursun sonunda 45 nəfər tədbir iştirakçısına müvafiq sertifikatlar verilib.

**Xəbərlər şöbəsi**





Türkiyə Cümhuriyyəti – 90

# Azərbaycan-Türkiyə münasibətləri qarşılıqlı dəstək və strateji tərəfdaşlıq müstəvisində inkişaf edir

**Ulu öndər Heydər ƏLİYEV:** *Türkiyə Cümhuriyyətinin böyük tarixi var. Böyük öndər, dahi Mustafa Kamal Atatürk indiki böyük, demokratik Türkiyənin əsasını qoymuş, böyük dövlət yaratmışdır. Sonra gələn nəsillər onun işini davam etdirərək Türkiyəni bütün dünyada nüfuzlu, əzəmətli bir dövlətə çevirmişlər.*

***29 oktyabr qardaş Türkiyənin Cümhuriyyət bayramıdır. 90 il bundan əvvəl Türkiyə Respublikası elan olunmuşdur. 1923-cü ildə tarix səhnəsinə qədəm qoymuş Türkiyə Respublikası Mustafa Kamal Atatürkün şah əsəri, çoxəsrlik türk dövlətçiliyinin yeni dövrdə davamıdır.***

Qardaş Türkiyə respublika quruluşuna nail olmaq üçün uzun və şərəfli bir yol keçmişdir. XX əsrin əvvəllərində dünyanın bir çox ölkələri, o cümlədən Türkiyə ətrafında cərəyan edən mürəkkəb siyasi və qanlı hadisələr 1914-cü ildə Birinci Dünya müharibəsinin başlanmasına və bununla birlikdə xalqlar arasında milli azadlıq hərəkatının güclənməsinə gətirib çıxardı. Osmanlı imperiyası da bu müharibəyə qoşuldu və Antanta dövlətləri tərəfindən məğlubiyyətə uğradıldı. 1918-ci ildə qalib dövlətlərlə Türkiyə arasında Mudros barışıq müqaviləsi bağlandı. Əslində isə bu saziş Türkiyəni parçalamaq və onu tarix səhnəsindən silmək niyyəti güdürdü. 1920-ci ilin avqustunda imzalanmış ədalətsiz Sevr sazişi isə Türkiyənin dövlətçiliyini və gələcəyini təhlükə altında qoymuşdu.

Türk xalqı bu cür tarixi ədalətsizliklə barışmayaraq 1919-cu ildə ölkədə milli azadlıq mübarizəsinə başladı. Mübarizəyə Birinci Dünya müharibəsi döyüşlərində bir sıra hərbi əməliyyatlarda uğur qazanmış, Osmanlı ordusunun ən istedadlı generallarından olan Mustafa Kamal Paşa rəhbərlik edirdi. Onun rəhbərliyi altında qurtuluş savaşı aparan türk ordusu ölkəni işğal etmiş düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Bu zəfər türk xalqının 1919-cu ildə başladığı istiqlal mücadiləsinin zirvəsi, minlərlə şəhid qanı ilə suvarılmış Vətən torpağının düşmən tapdağından xilası idi. Bu qələbənin qazanılmasında türk xalqı ilə yanaşı, Azərbaycan xalqı da iştirak etmiş, şəhidlər vermişdir.

1923-cü il oktyabrın 29-da bütün dünyaya azad, müstəqil və müasir Türkiyə Respublikasının yaradılması bəyan edildi. Atatürkün qurduğu Türkiyə Respublikası onun yolu ilə gedərək bu gün bölgədə və dünyada inkişaf edən dövlətə çevrilib. Güclü iqtisadiyyatı, qüdrətli ordusu, demokratiya və hüquqa bağlılığı ilə Türkiyə Respublikası beynəlxalq aləmdə öz yeri olan ölkələrdən biridir.

Tarixdə yaşadıqları çətinliklərə baxmayaraq, Türkiyə və Azərbaycan xalqları hər zaman bir-birinin yanında olmuşlar. Hər iki dövlətin müstəqillik tarixi ağır və qanlı müharibələrdən keçib, hər iki xalqın liderində – Mustafa Kamal Atatürkdə və ümummilli lider Heydər Əliyevdə çox güclü iradə, xalqı irəliyə aparmaq əzmi qurucusu olduqları dövləti yaşadıb, bu gün də yaşadır.

Ulu öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan və Türkiyə arasında qardaşlıq əlaqələri daha da genişlənmişdir. Bu münasibətlər davamlı olaraq inkişaf edir. Bakı və Ankaranın regionda və beynəlxalq aləmdə baş verən hadisələrə münasibəti hər iki tərəfin maraqlarına uyğun şəkildə həyata keçirilir.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafının əsas amilləri ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələrdir. Böyük Atatürkün ***“Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”*** və ulu öndər Heydər Əliyevin ***“Biz bir millət, iki dövlətik”*** fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini dəqiq ifadə edən ən mükəmməl formuldur. Azərbaycan beynəlxalq aləmə inteqrasiyada, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığa böyük əhəmiyyət verir.

Əsası ulu öndərimiz tərəfindən qoyulan Türkiyə ilə dostluq, qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Hər iki dövlət özünün iqtisadi və enerji imkanlarından, eləcə də geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi istiqamətində səmərəli surətdə istifadə edir. Bu gün bölgənin uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsində aparıcı rol oynayan və iki ölkə arasında münasibətlərin çox vacib elementlərindən birinə çevrilən neft və qaz kəmərləri təkcə regionda deyil, dünyada dövlətlərimizin nüfuzunu əhəmiyyətli dərəcədə artırmışdır. Belə ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. Bakı-Tbilisi-Qars dəmir yolu hər iki ölkənin siyasi, iqtisadi və strateji əməkdaşlığının daha bir nümunəsinə çevrilmişdir.

Ölkələrimiz arasında irimiqyaslı müştərək layihələrin reallaşdırılması sahəsində həyata keçirilən tədbirlər ardıcıl xarakter daşıyır. 2012-ci il iyunun 26-da Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında Trans-Anadolu Qaz Boru Kəməri üzrə Hökumətlərarası Müqavilə imzalanmışdır. Müqavilədə Azərbaycan qazının Trans-Anadolu Təbii Qaz Boru xətti ilə Türkiyə və Avropaya çatdırılması planlaşdırılır. Azərbaycan Prezidenti cənab İlham Əliyev layihənin əhəmiyyəti barədə demişdir: ***“Bizim bərabər həyata keçirdiyimiz böyük layihələr bu gün dünya enerji xəritəsinə yeni çalarlar gətirmişdir. İndi bölgəni birgə icra etdiyimiz layihələrsiz təsəvvür etmək mümkün deyildir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri Avropanın enerji xəritəsini böyük dərəcədə dəyişdirmişdir. Bu gün biz yeni böyük tarixi əhəmiyyəti olan TANAP layihəsinə də start veririk. Əminəm ki, TANAP layihəsi eyni uğura nail olacaqdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələri kimi, TANAP layihəsi də vaxtında və keyfiyyətlə icra ediləcəkdir. Türkiyə və Azərbaycan bu məsələdə də liderliyi üzərinə götürməli və bu layihəni birlikdə icra etməlidirlər. Bu layihə sırf Türkiyə və Azərbaycan layihəsidir. Bu layihə gələcəkdə Avropanın enerji təhlükəsizliyinə də böyük dəstək verəcəkdir”.***

Xalqlarımız arasındakı münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri də mühüm əhəmiyyətə malikdir. Həmin səfərlər zamanı imzalanan dövlətlərarası və hökumətlərarası sənədlər bütün sahələrdə əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün hüquqi baza rolunu oynayır. 2010-cu il sentyabrın 16-da “Azərbaycan və Türkiyə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə” imzalanmışdır. Azərbaycan Prezidentinin qardaş ölkəyə 2011-ci ilin 15-16 sentyabr tarixlərində həyata keçirdiyi səfəri də xüsusi əhəmiyyət kəsb edir. Belə ki, səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan tərəfindən “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə” imzalanmışdır. 2012-ci il sentyabrın 11-də Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri zamanı Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclası keçirilmişdir. İclasda təhsil, nəqliyyat, fövqəladə hallar, kənd təsərrüfatı, televiziya, standartlaşdırma, metrologiya və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətraflı müzakirə olunmuşdur.

Bu gün Azərbaycan-Türkiyə tərəfdaşlığı, bütövlükdə, regionun gələcək inkişafı üçün əlavə imkanlar yaradır. Çünki Azərbaycan və Türkiyə strateji mənada bir-birini tamamlayan vahidin ayrılmaz hissələridir. Bu müttəfiqlik eyni zamanda regionda sülhün və təhlükəsizliyin qorunmasının, eləcə də iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir.

İkitərəfli əlaqələrinin dinamikası Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu” imzalanmışdır. Bu səfərin nəticələri muxtar respublika üçün uğurlu olmuş, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzünə qarşı çıxaraq beynəlxalq Qars müqaviləsinə əsasən, Türkiyə Respublikasının Naxçıvanın muxtariyyətinin qarantı olması barədə bəyanat vermişdir. Bundan başqa, 1992-ci il mayın 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, 92 kilometrlik İqdır-Naxçıvan yüksəkgərginlikli elektrik xətti çəkilmişdir.

2008-ci ildə Türkiyə Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə isə Türkiyə Prezidenti Abdullah Gülün Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında iştirak üçün Naxçıvana gəlməsi müasir dövrdə Türkiyənin, bütövlükdə türk dünyasının Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani ifadəsidir. Zirvə görüşündə çıxış edən Türkiyə Prezidenti Naxçıvanın Türkiyə üçün çox mühüm əhəmiyyət daşıdığını bildirərək demişdir: ***“Naxçıvanın Türkiyə üçün çox böyük əhəmiyyəti vardır. Naxçıvan bölgəsindəki Azərbaycan və Türkiyə arasındakı sərhəd xətti məsafəcə kiçik olsa da, siyasi mənada çox böyük əhəmiyyət daşıyır. 10-12 kilometrlik bir sərhəd xəttinin siyasi əhəmiyyəti olduqca böyükdür. Bu sərhədimiz Türkiyənin türk respublikaları ilə coğrafi birliyini də əlaqələndirən çox rəmzi bir keçiddir”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Səfər çərçivəsində Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, Baş nazir Rəcəb Tayyib Ərdoğan, xarici işlər naziri Əhməd Davudoğlu, dövlət naziri Hayati Yazıcı və digər rəsmi şəxslərlə görüşlər keçirmişdir. Bu görüşlərin nəticəsi olaraq, 2010-cu il iyulun 17-də Naxçıvan şəhərində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ şirkəti arasında Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz kəmərinin tikintisi barədə niyyət protokolu imzalanmışdır. 2010-cu il iyunun 24-də Türk Hava Yolları ilə bağlanmış müqaviləyə əsasən, İstanbul-Naxçıvan-İstanbul təyyarə reysi fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycanla Türkiyənin əlaqələrinin sarsılmaz olduğunu bildirərək demişdir: ***“İndi dünya birliyində Türkiyə-Azərbaycan əlaqələrini bir-birindən ayırmaq qeyri-mümkündür. Artıq beynəlxalq təşkilatlarda da bilirlər ki, Türkiyənin mənafeyi olan məsələdə Azərbaycanın, Azərbaycanın mənafeyi olan məsələdə isə Türkiyənin səsi vardır. Türkiyə ilə Azərbaycan dünyada yeganə ölkələrdirlər ki, onları iqtisadi və siyasi maraqlardan daha çox soykök, milli və ortaq dəyərlər birləşdirir. Ona görə də iqtisadi və siyasi maraqlarımız daha möhkəm və uzunömürlüdür, eyni zamanda xalqlarımızın mənafeyinə xidmət edir”.***

Hazırda Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsində Türkiyə Respublikası ilk yerlərdən birini tutur. Muxtar respublikamızla Türkiyənin yaxın bölgələri arasında bütün sahələrdə, o cümlədən iqtisadi, mədəni, humanitar, təhsil sahələrində və ordu quruculuğunda da qarşılıqlı əlaqələr mövcuddur və bu əlaqələr dinamik şəkildə inkişaf edir.

*Türkiyə-Azərbaycan münasibətləri təkcə iqtisadi maraqlar üzərində qurulmayıb. İkitərəfli münasibətlər öz kökünü xalqlarımızın qədim tarixindən götürür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Türkiyə-Azərbaycan qardaşlığı və strateji tərəfdaşlığının möhkəmliyini yüksək qiymətləndirərək demişdir:* ***“Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir... Türkiyə və Azərbaycan dünya miqyasında nadir müttəfiqlik münasibətlərini qura bilmişlər. Biz bütün sahələrdə dost, qardaş kimi bərabər hərəkət edirik. Bundan sonra da onilliklər ərzində Türkiyə və Azərbaycan daim bir yerdə olacaqlar... Ölkələrimiz daha da sıx birləşəcək, siyasi, iqtisadi və bütün başqa sahələrdə əməkdaşlıq daha da dərinləşəcəkdir. Türkiyə-Azərbaycan iki qardaş xalq, iki qardaş ölkə kimi ancaq və ancaq irəliyə gedəcəkdir”.***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Türkiyə Cümhuriyyətinin yaradılmasının 90-cı ildönümü münasibətilə türk şəhidlərinin abidəsi ziyarət edilib



Türkiyədə Cümhuriyyət elan olunmasının 90-cı ildönümü münasibətilə Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanında ucalan türk şəhidlərinin abidəsi ziyarət edilib.

Tədbirdə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun əməkdaşları, Naxçıvan Qarnizonunun komandiri, general-leytenant Kərəm Mustafayev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Əsgər İsmayılov, türk liseylərinin müəllimləri, bir qrup türk iş adamı və türkiyəli tələbələr iştirak ediblər.

Əvvəlcə 1918-20-ci illərdə Naxçıvanın erməni daşnakları tərəfindən işğalının qarşısının alınmasında şəhidlik zirvəsinə ucalan qəhrəman türk əsgərlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, abidə önünə əklil qoyulub, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Mərasimdə Türkiyənin Naxçıvandakı Baş konsulu Ali Rza Akıncı Cümhuriyyət bayramının tarixi və əhəmiyyəti haqqında danışıb. Qeyd edilib ki, hər iki ölkənin müstəqilliyinin bərpa olunması yolunda böyük zəhmətlər çəkilib. Bu gün qədim oğuz-türk yurdu olan Naxçıvan torpağında uyuyan şəhidlər də müqəddəs bir amal uğrunda canlarını qurban vermiş insanlardır. Bu amal bütün türk torpaqlarının toxunulmazlığını qorumaqdır.

Sonra ziyarətçilər Şəhidlər Xiyabanında ucaldılmış Ana abidəsinin və ötən əsrin sonlarında ölkəmizin azadlığı və suverenliyi, Naxçıvanın qorunması uğrunda şəhid olmuş Vətən oğullarının məzarları önünə gül-çiçək dəstələri qoyublar.

**Səbuhi HÜSEYNOV**

# Naxçıvan haqqında xarici qonaqların fikirləri

*Con Toşak (“Xəzər Lənkəran” futbol komandasının baş məşqçisi)*

***“Naxçıvanda yerləşdiyimiz otel, oranın personalı bizə qarşı çox qonaqpərvər davrandılar. Təhlükəsizliyimiz üçün lazım olan bütün diqqət alqışalayiq idi və elə polislər də nümunəvi davranışları ilə yadda qaldılar”. Bu sözləri “Xəzər Lənkəran”ın baş məşqçisi Con Toşak deyib.***

Uelsli mütəxəssis klubun rəsmi saytına açıqlamasında bir daha Azərbaycan Superkubokunun “Neftçi” ilə qarşılaşmasından (2:1) danışıb: “Çox təmiz havası olan Naxçıvanda hər tərəflə əhatə olunmuş dağlar da şəhər mərkəzinə əlavə gözəllik verirdi. Xüsusən bir rəngdə olan taksilər və sürücülərin uniformada olması diqqətimi çəkdi. Maraqlanıb biləndə ki, taksilər yerli istehsaldı, yadıma “FİAT”ın İtaliyada yayılması düşdü. Bundan əlavə, küçələrdə şütüyən avtomobillər çox təmiz idi. Məncə, Avropada Naxçıvan haqqında geniş məlumatlar yoxdur. Hamı Bakı, Bakı deyir, amma belə bir gözəl məkan da varmış. Ən çox da bizi matç ərzində dəstəkləyən naxçıvanlı azarkeşlərə minnətdaram. Görünür, “Xəzər Lənkəran”ın hər yerdə sadiq azarkeşləri var. Bir sözlə, Naxçıvan məndə inanılmaz xoş təəssürat oyatdı”.






***Şəhər mövzusu maraqlı olduğu kimi, həm də rəngarəng və mürəkkəbdir. Şəhərdə yaşayan, yaxud kənddə yaşayıb şəhərlə sıx əlaqələri olan hər bir kəs bilir ki, şəhər, hər şeydən əvvəl, onun üçün müasirlik və mədəniyyət, işgüzar mühit deməkdir. Şəhərdə yaşayıb, onun gözəlliklərini duya bilən insanlar 10-15 günlüyə kəndə, sakit bir guşəyə gəlib rahatlıq tapsalar da, növbəti günlərdə yenə də şəhərin qaynar həyatına qayıtmaq istəyirlər. Çünki təbiəti etibarı ilə insan sosial-mədəni inkişafda öz yerini axtaran yeganə varlıqdır.***

Son zamanlar, xüsusən də təbiətlə sıx ünsiyyət tələbatının artdığı bir dövrdə kəndlərə, kənd həyat tərzinə marağın çoxalmasına baxmayaraq, şəhərlər həmişəki kimi öz üstünlüyünü qorumaqdadır. Şəhərlə kənd arasındakı fərq aradan qaldırıldıqda iri şəhərlərdən tutmuş ən ucqar kəndlərə qədər ölkənin hər yerində bütün cəmiyyətin yaşaya bildiyi bir sosial-mədəni mühit formalaşır. Bu gün muxtar respublikamızda bu mühit uğurla formalaşdırılmaqda, şəhər mədəniyyəti regionun ən ucqar kəndlərində belə, duyulmaqdadır.

Şəhərlər sivilizasiyalı mədəniyyətin başlanğıcı, elmin, təhsilin, dünyəvi düşüncənin mərkəzi sayılır. Dünyada bir çox şəhərlərin yaranmasında dinin, mədəniyyətin, iqlimin, dəniz və quru yollarının təsiri çox olub. Bir çox şəhərlər tarixən olduğu kimi, sivilizasiyaların qovuşma nöqtəsi, mədəniyyətlərarası dialoqa açılan yolların geniş qapısı rolunu indi də oynamaqdadır. Tarixə məlum olan ilk belə şəhərlər cəmiyyətdə oturaq həyata keçiddən sonra ilk dövlətlərin paytaxtları kimi yaddaşımızda qalıb. O dövrdən bu günə qədər şəhərlər cəmiyyətdə özünün quruluşu və insanların birgə mədəni dəyərlərini paylaşaraq yaşamaq üçün yaratdığı imkan və fürsətləri ilə inkişafa təkan verən insan məskənləridir. Şəhər həm də böyük ölkələrin idarə olunduğu, tarixdə iz qoymuş böyük şəxsiyyətlərin parlaq ideyalarının və cəsarətli qərarlarının səsləndiyi yerdir. Bunlarla yanaşı, şəhər həyatı sosial həyatda anonimliyin sürətlə dərinləşdiyi, maşın-mexanizmlərin səs-küyünün artdığı, ekoloji vəziyyətin daim diqqət tələb etdiyi bir məkandır.

Şəhər haqqında hər kəsin bir hekayəsi vardır. Kimin üçün şəhər onun yaxşı iş yeri, kimin üçünsə gənclik illərinin acı-şirin xatirələrini yaşadığı bir məkandır. Bu gün də bura bizim hər gün müəyyən işlər dalınca gəldiyimiz və yaxud işlədiyimiz, oxuduğumuz, yaşadığımız bir şəhərdir.

Şəhərdə məskən salıb yaşamağın öz qayda-qanunları vardır. Belə ki, burada hamı bir-birini tanımasa da, hamının qəbul etdiyi birgə yaşayış normaları vardır ki, bunlara mütləq əməl olunmalıdır. İnsanlar dəyişilib cəmiyyət müasirləşdikcə tələbatlar da dərinləşə və təkmilləşə bilir. Ancaq cəmiyyətdəki ümumi həyat tərzinin vacib bir elementi kimi şəhər burada yaşayan insanların mədəniyyət naminə könüllü olaraq kollektiv hərəkətlərə qoşulduğu bir yaşayış məskənidir. İndi bir çox kəndlərimiz öz sosial-mədəni şəraitinə görə şəhərlərlə yarışa girsə də, şəhərə məxsus olan kollektiv tələbatlar özünəməxsusluğuna görə yenə seçilir. Adamların sərnişin kimi şəhərdaxili avtobusların, tamaşaçı kimi konsert və kino zallarının, ziyarətçi kimi muzey və sərgilərin, azarkeş kimi stadionların, pasient kimi klinikaların xidmətlərindən istifadə etmək imkanı şəhərə şəhər görüntüsü verən, insanları bir-birini şəxsən tanımasa da, onlara uzun illər bir ünvanda yaşamağın zövqünü yaşadan ən əsas amillərdəndir. Başqa sözlə, şəhər ona görə şəhərdir ki, buranın sakinlərinin həyat tərzinə onların işindən əldə etdikləri qazancla bərabər, həm də mədəni münasibətlərin yaratdığı rekreasiya faktoru da təsir edir.

Bunlardan əlavə, bu şəhər həm də ona görə dəyərlidir ki, o, bütöv bir xalqın çətin mübarizə dövrlərində öz müdrik qərarları ilə minlərlə, yüz minlərlə insanı öz arxasınca apara bilən dahi rəhbərin yaşayıb fəaliyyət göstərdiyi bir şəhərdir. Bəli, şəhərimiz təkcə bu regionun təhsil, mədəniyyət, idman və səhiyyə mərkəzi, turistlərin sevimli istirahət və əyləncə məkanı olmaqdan əlavə, həm də yaxın tariximizə dərin iz qoymuş siyasətçilərin də doğma şəhəri, fəaliyyət yeridir.

Əvvəlki dövrlərə görə indi şəhərimiz çox dəyişilib. Şəhər həyatı dinamik inkişaf, sürətli dəyişikliklər həyatı olduğundan şəhərimizdəki hamar yollar, çıraqban gecələr, abad küçələr, gözəl, işıqlı milli reklamlar, səliqəli park və bağçalar, bir-biri ilə növbələşmiş xidmət obyektləri zamanın tələbi, inkişafın zəruri şərtidir. Gündən-günə artan avtomobillər, sıx inşa olunan müxtəlif infrastruktur şəbəkəsi, ticarət, tikinti işlərinin yaratdığı vəziyyət həm də şəhərin yüklənməsini artıran bir inkişafın nəticəsidir. Cəmiyyətin inkişafının mütləq şərt olduğu bir vəziyyətdə şəhər təsərrüfatının proqnozlaşdırılması, onun onlarla il sonrakı perspektivlərini nəzərə almaqla imkanlarının planlaşdırılması bugünkü şəhər mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Heç nəyə biganə ola bilməyən şəhərli gözlədiyi təmir-abadlıq işlərinə, hamının rahatlığına mane törədən standartdankənar tikililərin təmizlənməsinə nə qədər sevinirsə, eyni ilə salınan üç ay sonra təkrarən qazılan təzə asfalta, doğranaraq yeni dəyişdirilən qaz, su xətlərinə də öz təəssüfünü gizlədə bilmir: heyifdir axı!

***Şəhərimiz inkişaf edib gözəlləşir. İndi şəhərimiz bura gələn kənd əhlini, yaxud ölkəmizin, dünyanın başqa yerlərindən gələnləri təəccübləndirir. Onlarda dərin təəssürat yaratmaq üçün heç də qeyri-adi təbiət möcüzəsi axtarmaq lazım deyil. Onsuz da bu şəhər özünün qədim və yeni tarixi, coğrafi mövqeyi və ətraf landşaftı ilə hamını heyrətə salır. Ürəyində çoxdan kök salmış yurd sevgisi hisslərini yenidən alovlandırmaq, bu dünyanın ən qədim şəhər mədəniyyətini görmək istəyirsənsə, buyur, gəl bizim şəhərə. Bu şəhər, hər zaman olduğu kimi, indi də özünün gözəlliyə bürünmüş yeni libasında bütün qonaqlarına “xoşgəldin” deyir. Bizim şəhər neçə-neçə nəsillərin həzin xatirə və şirin arzularının bütöv bir hekayəsini özünə sığdıran tarix yaşıdı Naxçıvan şəhəridir.***

**Kəmalə MƏMMƏDOVA**

***Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı təmin olunmuş, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsinə dövlət maliyyə dəstəyi göstərilmiş, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni istehsal və xidmət sahələri yaradılmışdır. Aparılan uğurlu islahatlar nəticəsində sənaye məhsulunun həcmi ilbəil artmış, muxtar respublikada istehsal olunan sənaye məhsulunun 93,2 faizi özəl sektorun payına düşmüşdür.***

# “Zümrüd” Kiçik Müəssisəsində yeni istehsal sahəsi yaradılır



Əlverişli sahibkarlıq mühitindən bəhrələnərək dövlət maliyyə dəstəyi ilə istehsal sahəsini genişləndirən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Zümrüd” Kiçik Müəssisəsidir.

“1997-ci ildə 6 nəfərlə fərdi sifarişlərə uyğun kişi və qadın geyimləri tikməklə fəaliyyətə başladıq”, – deyən müəssisənin direktoru Etibar Hacıyev bildirdi ki, ötən müddət ərzində dövlət dəstəyi ilə müasir istehsal sahəsi yaradılmışdır. Müəssisədə istehsal olunan məktəbli formaları alıcılar tərəfindən rəğbətlə qarşılanır. Verilən sifarişləri vaxtında və keyfiyyətlə yerinə yetirmək üçün burada yeni avadanlıqlar quraşdırılmış, müəssisəyə əlavə işçi qüvvəsi cəlb olunmuşdur. Amma uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə yeni istehsal sahələrinin yaradılmasına və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi zərurəti yaranmışdır. 2010-cu ilin yanvar ayında Sahibkarlığa Kömək Fondundan 560 min manat güzəştli kredit götürülmüşdür. Layihəyə uyğun olaraq, Naxçıvan şəhərində zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət yeni bina inşa edilmişdir. Binanın birinci mərtəbəsində geyim, kompüterlə ölçü və biçim otaqları, satış mağazası və iş otaqları yerləşir. İkinci mərtəbədə isə geniş istehsal sahəsi və ütü otağı fəaliyyət göstərir.

Müəssisədə yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınmasına 810 min manat vəsait sərf olunmuşdur ki, bunun da 250 min manatı daxili imkanlar hesabına ödənilmişdir.

Ümumi ərazisi 590 kvadratmetr olan müəssisədə yüksəkkeyfiyyətli məhsul istehsalı üçün Almaniya, Yaponiya və Türkiyə istehsalı olan 70 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqları quraşdırılmış, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilmişdir.

Yeni istehsal sahəsinin yaradılması daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynamış, 30 yeni iş yeri açılmışdır. Müasir texnikadan istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılmış,Türkiyə Respublikasından təcrübəli mütəxəssislər cəlb olunmuş, eyni zamanda işçilərin 1 ay müddətində Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin edilmişdir. Hazırda istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

İstehsal prosesi avtomatlaşdırılmış müəssisədə məktəbli forması, ali məktəblərin tələbə və müəllimləri, hüquq-mühafizə orqanları əməkdaşları üçün xüsusi formalar və müxtəlif geyim dəstləri tikilir. İstehsal olunan məhsulun keyfiyyət göstəricilərinə xüsusi diqqət yetirilir, xammalın qəbulundan tutmuş məhsulun satışa çıxarılmasınadək texnoloji proseslərə ciddi əməl olunur. Xammal anbardan biçim sexinə aparılıb sifarişə uyğun olaraq kəsilir, ümumi istehsal sahəsində isə tikilib ütülənir. Gələcəkdə müəssisənin istehsal etdiyi məhsulların ayrı-ayrı rayonlarda da satışını təmin etmək məqsədilə mağazaların yaradılması nəzərdə tutulmuşdur.

“Zümrüd” Kiçik Müəssisəsinin kostyum istehsalı sahəsi fəaliyyətə başlayanadək bu məhsullara olan tələbatın çox hissəsi idxal hesabına ödənilirdisə, gündəlik istehsal gücü 100 dəst kostyum olan müəssisənin fəaliyyətə başlaması ilə həmin məhsullara olan tələbatın daxili imkanlar hesabına ödənilməsi təmin edilmişdir. Hazırda müəssisədə sifarişə uyğun Naxçıvan Muxtar Respublikası Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin, eləcə də Ədliyyə Nazirliyinin Penitensiar Xidməti əməkdaşları üçün xüsusi geyim formaları tikilir. Bundan başqa, ayrı-ayrı vətəndaşların da sifarişləri qəbul olunur.

Kollektiv yüksəkkeyfiyyətli məhsul istehsalı üçün mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərir. Sifariş verilən xüsusi geyim formalarının kompleks şəkildə müəssisədə istehsal edilməsi məqsədilə yeni – köynək istehsalı sahəsinin yaradılmasına başlanmışdır. Bu məqsədlə biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Layihənin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan 165 min manat güzəştli kredit ayrılmışdır. Hazırda Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi-39 ünvanında ayrılmış yeni binanın istehsal sahəsinə uyğunlaşdırılması üçün təmir-bərpa və yenidənqurma işləri aparılır. Layihəyə uyğun olaraq, ümumi sahəsi 654 kvadratmetr olan binada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, iaşə xidməti göstərilməsi üçün yeməkxana və inzibati heyət üçün ayrı-ayrı iş otaqları yerləşəcək. Hazırda su, istilik və kanalizasiya sistemləri qurulur, elektrik xətləri çəkilir. Cari ilin sonunadək fəaliyyətə başlaması nəzərdə tutulan köynək istehsalı sahəsində Yaponiya və Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılacaq. İstehsal gücü 8 saatlıq iş rejimində 500 ədəd köynək olan yeni istehsal sahəsi daxili bazarın tələbatını tamamilə ödəyəcək. Eyni zamanda yeni istehsal sahəsinin fəaliyyətə başlaması ilə əlaqədar 25-30 yeni iş yeri açılacaq.

**Kərəm HƏSƏNOV**

# Ağ xalatın məsuliyyəti

## Təəssüf ki, bu məsuliyyətli işə ciddi yanaşmayan tibb işçiləri də var

Son 18 ildə muxtar respublikada səhiyyə sahəsində görülən işlər göz qabağında olduğundan bu barədə geniş danışmağa lüzum görmürəm. Bu işlər hər addımda özünü göstərir. Həyata keçirilən tədbirlər isə muxtar respublika əhalisinin kənarda müalicə və müayinə olunmasının qarşısını alıb. Ancaq bu işlərin fonunda, mütləq etiraf etməliyik ki, səhiyyə sahəsində hələ də nöqsanlar vardır. Bu isə bəzi tibb işçilərinin öz işlərinə məsuliyyətsiz yanaşmalarından irəli gəlir. Bəs yaradılan şəraitə əməli işlə cavab verməyənlər nə düşünürlər? Müşahidə etdiyimiz nöqsanları oxuculara çatdırmaq istəyirik. Bu, muxtar respublikanın səhiyyə ocaqlarında həkimlərin və orta tibb işçilərinin gecə növbəsi ilə bağlıdır. Unutmayaq ki, həkimin dəqiq müəyyənləşdirilmiş iş saatı yoxdur. Belə peşə sahiblərinə insanların daim ehtiyacı var. Heç kim bilə bilməz ki, bir saatdan sonra onun başına nə gələcək. Ona görə də insan həyatı həmişə mühafizə olunmağa möhtacdır. Bizdən asılı olmayan səbəblər ucbatından sağlamlığımıza dəyən zərər həkimlər tərəfindən aradan qaldırıla bilər. İnsanların sağlamlığında günün istənilən vaxtında problem yarana bilər. Ona görə də tibb ocaqlarında gecə növbətçiliyi xüsusi əhəmiyyət kəsb edir. Jurnalist araşdırması zamanı muxtar respublikadakı xəstəxanaların gecə fəaliyyətləri ilə bağlı bir sıra nöqsanlara rast gəldik.

### Xəstəsiniz, yoxsa sizə qanun lazımdır?..

Yolumuzu Culfa Rayon Mərkəzi Xəstəxanasından salırıq. Əvvəllər rayon xəstəxanası köhnə binada yerləşirdi. Xəstəxana üçün yeni bina tikildi və 2008-ci ildə ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikaya səfəri zamanı istifadəyə verildi. Bundan sonra rayon səhiyyəsində böyük dəyişikliklər oldu. Bu xəstəxanada dəfələrlə müşahidələr aparmış və reportajlar hazırlamışıq. Xəstəxananın tibbi heyətinin qarşısında qoyulan vəzifələrin səylə yerinə yetirilməsinin şahidi olmuşuq. Ancaq bu xoş sözləri xəstəxananın gecə fəaliyyəti üçün demək çətindir. Oktyabr ayının 22-də, saat 23 radələrində xəstəxanaya üz tutduq. Tibb ocağının əsas korpusunda Təcili yardım şöbəsinin feldşeri ilə rastlaşdıq. ***Şöbənin sürücüsünü soruşduq. Bildirdi ki, harasa gedib. Xeyli gözlədikdən sonra öyrəndik ki, sən demə, sürücü şirin yuxudadır. Xəstəxananın növbətçi həkimi Xanlar Nəcəfovla görüşmək istədik. Xəstə üstünə çağırıldığını dedilər. Sürücü yatıb, yaxın həkim avtomobili özü idarə edərək xəstə yanına gedib. Xanlar həkimlə telefon əlaqəsi saxlayıb ona özümü pasient kimi təqdim etdim, yoxlanmaq istədiyimi bildirdim. "Mən Naxçıvan şəhərindəyəm, işim var"***, – deyərək telefonu söndürən həkimin belə münasibətinə ad verməyi oxucuların ixtiyarına buraxırıq. Öz yalançı "dost"larından xəbər tutan həkim bir müddətdən sonra bizimlə əlaqə saxladı: ***"Xəstəsiniz, yoxsa sizə qanun lazımdır?" – deyə soruşan həkimin hərəkətinə ad verməyə söz tapa bilmirəm.*** Bəlkə, ona hansısa ağır xəstə müraciət etmişdi? Xanlar həkim öz peşəsinin məsuliyyətini dərk etmədən, iş başında olmaq əvəzinə rayondan kənar bir yerə gedib. Ola bilər ki, vacib işi olub. Onda heç olmasa öz yerini başqa həkim yoldaşı ilə əvəz etməli idi. Bu işin məsuliyyəti isə xəstəxananın baş həkiminin üzərinə düşür. Görəsən, bu olaydan sonra baş həkim nə düşünür?

Oktyabrın 28-i saat 2 radələrində yenidən xəstəxanada olduq. Bu dəfə isə vəziyyət daha acınacaqlı idi. ***Xəstəxanaya daxil oluruq. Burada dəqiqələrlə gözləyirik. Hər üç mərtəbədəki tibb bacılarının otaqlarının qapılarını döyürük. Ancaq təəssüf ki, bizim səsimizə səs verən yoxdur.*** Düzdür, tibb işçilərinin növbətçiliyi 24 saat müddəti əhatə etdiyindən təcili yardıma ehtiyac olmayan xəstə müraciət etməyən vaxtlarda onların istirahət etməsinə icazə verilir. Ancaq bu, xəstəxananın nəzarətsiz buraxılmasına əsas vermir.

Aşağıya enib burada gözləyirik. Məcbur qalıb baş həkimin mobil telefonu ilə əlaqə saxlayırıq. ***Baş həkim xəstəxanaya gələrək səhiyyə ocağında heç kimin olmamasına özü də təəccüblü qalır. O, növbətçi həkimin Təcili yardım şöbəsinin feldşeri ilə birlikdə xəstə yanına getdiklərini dedi. Baş həkimin arxasınca da növbətçi həkim gəlir. Deyir ki, Gülüstan kəndindən gəlirik. Maraqlıdır, ağ xalatda olmayan həkim, qeydiyyata düşməyən xəstənin adı və sahibsiz qalan xəstəxana.*** Əlavə şərhə ehtiyac yoxdur.

### Xəstəxananın sürücüsü avtomobili yox, xəstəxananı idarə edir

Ordubad Rayon Mərkəzi Xəstəxanasındayıq (22 oktyabr). ***Xəstəxananın xadiməsi bizə yaxınlaşıb kim olduğumuzu soruşur. Özümüzü təqdim etdikdən sonra o, bizə xəstəxananın sürücüsünü göstərərək "ona müraciət edin"***, – ***deyir. Görünür ki, xəstəxananı sürücü idarə edir.*** O, bizi şöbələrlə tanış edir. Tibb bacıları yerində idi. Növbətçi həkim Minaxanım Əliyeva ilə görüşmək istədik. ***Dedilər, "həkim buradadır". "Yəni haradadır?" sualıma cavab tapmaq üçün xəstəxananı gəzdik. Tibb bacılarından biri dedi ki, xəstə yanındadır, o biri də "aşağıdadır", – deyə söhbətə qarışdı. Bayaqdan xəstəxanada olduğunu israr edənlərdən biri isə: "indi gələcək", – dedi. Xəstəxanaya ağır vəziyyətdə gətirilən xəstə oturub növbətçi həkimimi gözləməlidir? Xəstə can dərdində ikən, deməli, hamı həkim axtaracaq...***

Gecədən xeyli keçib. Nəhayət, biz oktyabrın 23-nə keçən gecə oyaq və yerində olan həkim görmək xoşbəxtliyinə nail ola bildik. Gecə saat 3[00]-də Şərur Rayon Mərkəzi Xəstəxanasının növbətçi həkimi Hüseynəli Abbasovla xəstəxananın dəhlizində görüşdük. O, bütün tibb bacılarının yerində olduğunu söylədi. Xəstəxanada Yoluxucu xəstəliklər şöbəsindən və bir neçə tibb bacısından başqa, bütün şöbələrin həkimi və tibb bacısı oyaq idi. Biz orada ikən zəhərlənmə ilə bağlı bir vətəndaş xəstəxanaya gətirildi. Tibbi heyətin fəaliyyəti qənaətbəxş idi.

Kəngərli Rayon Mərkəzi Xəstəxanasının binasında təmir işləri aparıldığından bu səhiyyə müəssisəsi müvəqqəti olaraq Qarabağlar kəndindəki həkim ambulatoriyasında fəaliyyət göstərir. Növbətçi həkim İntiqam Əbilov tibb heyəti ilə birlikdə xəstəxanada idi.

### Naxçıvan şəhərindəki xəstəxanalarda kim yatmış, kim oyaq?..

Oktyabrın 23-də bir neçə rayonda araşdırmamızı yekunlaşdırdıqdan sonra üz tutduq Naxçıvan şəhərində yerləşən xəstəxanalara. ***Doğum Mərkəzinin qarşısındayıq. Mərkəzin hər iki giriş qapısını döysək də, dəqiqələrlə gözlədik. Səsimizə hay verən olmadı. Bu, o demək deyildi ki, içəridə heç kəs yoxdur. Var. Lakin, deyəsən, onlar da yatmışdılar. Tibb işçiləri iş başında olduqlarını tamamilə unudublar. Ümidimiz qaldı xəstəxananın həyətindəki nəzarətçiyə. Ən acınacaqlı vəziyyət elə burada idi. Nəzarətçi də yerində deyil.*** Həmin gün kimsə ağır vəziyyətdə ora aparılsaydı, məcburən səhərə qədər gözləməli, öz sağlamlığını Allahın ümidinə buraxmalı olacaqdı. Xəstəxananın qapılarının bağlı olması məsələnin bir tərəfidir. Səhiyyə ocağının həyətyanı ərazisində də heç kim yoxdur. ***Bəs mühafizə haradadır?***

Eyni vəziyyətlə Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında və Kardioloji Mərkəzdə də rastlaşdıq. ***Bu tibb ocaqlarının da qapıları bağlı idi. Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının mühafizəçisi yerində yox idi.*** Unutmayaq ki, uşaqlar bizim gələcəyimizdir və onların sağlamlığı üçün dövlətimiz nə lazımdırsa, edir. Səhiyyə ocağının binası müasir tələblər səviyyəsində yenidən qurulub, müasir tibbi avadanlıqlarla təchiz olunub. Belə şərait yaradılıb ki, uşaqların müayinə və müalicəsində heç bir problemlə rastlaşılmasın. Ancaq gördüklərimiz ***bu səhiyyə müəssisəsi haqqında bizdə o qənaəti yaratdı ki, xəstəxananın tibb personalı öz işinə dırnaqarası baxır.*** Belə olmasa idi, gördüyümüz mənzərə ilə rastlaşmazdıq. ***<u>Onu da xüsusilə qeyd edim ki, müşahidələrimizin videolenti var. Kiminsə jurnalist araşdırması ilə bağlı şübhəsi olsa, redaksiyamıza müraciət edə bilər və həmin dəlilləri ona təqdim etməyə hazırıq.</u>***

Yolumuz Naxçıvan Muxtar Respublika Xəstəxanasınadır. Xəstəxananın Reanimasiya və Cərrahiyyə şöbələrində tibb bacıları və həkimlər yerində və iş başında idilər. Nevrologiya şöbəsinə də baş çəkirik. ***Amma, deyəsən, növbətçi həkim Zakir Səfərova gec xəbər verilib ki, o, xəstəxanaya bizdən sonra gəlir. Zakir həkim bizi borclu çıxarır. Deyir, "sizin nə ixtiyarınız var ki, gecə bizi yoxlayasınız?" Həkimə müşahidə aparacağımızı bildiririk. Onun "mən niyə bura gəlməliyəm?" sualı isə başa düşülən deyil. Yəqin ki, həmin sualın cavabını Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi verəcək.***

Oktyabrın 28-i, saat 00[15]-dir. Şahbuz Rayon Mərkəzi Xəstəxanasındayıq. ***Xəstəxananın giriş qapıları taybatay açıqdır. Təcili yardım şöbəsinə daxil oluruq. Burada heç kim gözə dəymir. Səhiyyə müəssisəsinin telefonu uzun-uzadı zəng çalsa da, dəstəyi qaldıran yoxdur. Binanın ikinci və üçüncü mərtəbələrini gəzirik, ucadan tibb işçilərini səsləyirik. Bizə cavab verən yoxdur.*** Nəhayət, birinci mərtəbədəki Təcili yardım şöbəsinin telefonunun dəstəyini qaldıran tapılır. Qısa dialoqdan sonra öyrənirik ki, bu, xəstəxananın xadiməsidir. Növbətçi həkimi və digər tibb işçilərini soruşuruq. Xadimə ***"Təcili yardım şöbəsinin işçiləri Külüs kəndinə çağırışa gedib, növbətçi həkim yoxdur, tibb bacıları isə yuxarıdadır"***, – deyir. ***Onunla birlikdə yenidən xəstəxananı gəzir, yatmış tibb bacılarını bir-bir oyadırıq.*** Tibb işçilərinin yatmağına sözümüz yoxdur, amma bu qədər müasir avadanlıqlarla təchiz olunmuş xəstəxana binasını sahibsiz qoymaq ən azı vicdansızlıqdır. ***Biz tibb işçilərini xəstəxanaya daxil olduqdan təxminən 15 dəqiqə sonra tapa bildik.*** Bu 15 dəqiqə ərzində hansısa xəstənin həyatı təhlükə altına düşə bilər, yaxud da xəstəxanada asanlıqla təxribat törətmək olardı. ***Bir az keçəndən sonra xəstəxananın növbətçi həkimi və baş həkimi özünü yetirir. Baş həkim deyir ki, xəstəxana 30 çarpayılıq olduğundan növbətçi həkimlər evlərində gözləyirlər.*** Qəribə məntiqdir. Ancaq ola bilsin ki, baş həkim haqlıdır. Hər halda bu məsələyə də Səhiyyə Nazirliyi aydınlıq gətirəcək.

Həmin gün Babək Rayon Mərkəzi Xəstəxanasına da baş çəkdik. ***Növbətçi həkim Oqtay Rzayev yerində yox idi. Təcili yardım şöbəsinin tibb bacısı ilə sürücüsünü uzun fasilədən sonra yuxudan oyada bildik.***

### Son söz əvəzi...

**Həyatda bəzən insanın çarəsiz qaldığı anlar da olur. Mən də bu yazını necə bitirəcəyimə qərar verməkdə çətinlik çəkdim. Muxtar respublikada yaradılan yüksək şərait müqabilində belə fəaliyyət göstərmək ən azı vicdansızlıqdır. Bu gün Naxçıvanda fəaliyyət göstərən səhiyyə müəssisələri ən müasir standartlara cavab verir. Muxtar respublikanın səhiyyə ocaqlarında yaradılan şəraitin, tibb müəssisələrinin maddi-texniki bazasının, müasir avadanlıqlarla təchizatının bölgədə analoqu yoxdur. Dövlətimiz bu şəraiti yaradıb ki, insanların sağlamlığı qorunsun, muxtar respublika əhalisi heç bir problemlə rastlaşmasın. Xəstəxanalardakı müasir avadanlıqlar gecə saatlarında sahibsiz buraxılmaq üçün qoyulmayıb, səhiyyə müəssisələrindəki rahat palatalar tibb işçilərinin yatmağı üçün yaradılmayıb. Hörmətli tibb işçiləri! Siz dövlətin göstərdiyi qayğının, yaratdığı şəraitin, bir də geyindiyiniz ağ xalatın məsuliyyətini dərk etməlisiniz. Çünki hamımızın sağlamlığı öncə Allahın, sonra sizin əlinizdədir. Unutmayaq ki, həyatla ölüm arasındakı zaman məsafəsi saatla, dəqiqələrlə deyil, saniyələrlə ölçülür. Buna görə də həkimin hər dəqiqəsi insan həyatı üçün önəmlidir. İş başında olan həkimlərin yerində olmaması və ya yatmaları bağışlanılmazdır. Belə bir deyim var: həkimin təqsirlərini torpaq ört-basdır edir, həkim heç bir cəza almır. Ancaq, əksinə, həkimlər vicdanın hökmünə məhkumdurlar. Bundan ağır cəza ola bilməz. Əgər o vicdan da varsa...**

**Sara ƏZİMOVA**

# "Araz-Naxçıvan"ın məğlubedilməzlik seriyası davam edir

Azərbaycan birinci divizionunun 7-ci tur çərçivəsində "Araz-Naxçıvan" futbol komandası oktyabrın 26-da Biləcərinin (Bakı) "Lokomotiv" komandasını qəbul etdi. Cari mövsümdə uğurlu çıxışı ilə hamının diqqətini cəlb edən muxtar respublika klubu bu dəfə də azarkeşlərini sevindirdi. Doğma arenada məğlubedilməzlik seriyasını davam etdirən qırmızı-ağlar bu qələbədən sonra liderliyini davam etdirdi. Əsgər Abdullayevin yetirmələri "Bakı"nın "farm klubu" kimi ad qazanan "Lokomotiv"in qapısından üç cavabsız top keçirdilər.

Bu dəfə baş məşqçi Əsgər Abdullayev meydana 3-4-1-2 taktikası ilə çıxmışdı. Daha çox gücü yarımmüdafiə xəttinə verən baş məşqçi hücum yollarında iki hücumçuya bel bağlamışdı. Cari mövsümün ən çox qol sahibi David Canıyev, eləcə də Bəxtiyar Soltanov stadiona toplaşmış azarkeşlərə baxımlı və bolqollu oyun nümayiş etdirmək üçün əllərindən gələni etdilər.

Stadiona toplaşmış azarkeşlər matçın 28-ci dəqiqəsində sevimli komandalarını ayaq üstə alqışladılar. Sağ cinahdan rəqibin müdafiə xəttini yaran Bəxtiyar Soltanov Əlimirzə Daşzəriniyə ideal ötürmə verdi. Müdafiəçi də, öz növbəsində, fərqlənməklə tablodakı sıfırları dəyişdi. Daha çox hücuma meyilli oyun oynamağı yetirmələrinə tapşıran Əsgər Abdullayev bu qoldan sonra da yerində rahat durmadı. Daim futbolçularını hücuma səsləyən Ə.Abdullayev ikinci hissəyə dəyişikliklə başladı. Fərman Qəmbərovu Elgiz Kərimli ilə əvəzləyən baş məşqçi ikinci hissənin başlamasından 3 dəqiqə sonra daha bir qol sevinci yaşadı. Bu dəfə də qolun vurulmasında Bəxtiyar Soltanovun rolu böyük oldu. Rəqib müdafiəsinin kobud səhvindən istifadə edən B.Soltanovun sağ cinahdan ötürməsindən sonra David Canıyevə yalnız topu boş qapıya göndərmək qaldı – 2:0.



"Lokomotiv" böyük hesabla məğlub olmamaq üçün bu hesabı sonadək qorumaq istəyirdi. Ancaq onların istəyi mümkün olmadı. Meydana ikinci hissədə daxil olan Elgün Abbaslı 59-cu dəqiqədə uzaq məsafədən vurduğu mükəmməl qolla hesab arasındakı fərqi üç topa çatdırdı. Artıq qələbəni tam olaraq təmin etdiyinə inanan Əsgər Abdullayevin yetirmələri bu qoldan sonra oyunun tempini mümkün qədər aşağı salmağa çalışdılar ki, buna da nail oldular. Ancaq oyunun başa çatmasına 8 dəqiqə qalmış "Araz-Naxçıvan" ciddi itki ilə üzləşdi. Belə ki, rəqib futbolçu ilə toqquşan qapıçı Nicat Əliyev meydanı tərk etmək məcburiyyətində qaldı.

Beləcə, "Lokomotiv"in Naxçıvan Muxtar Respublika Stadionunda debütü uğursuz alındı. "Araz-Naxçıvan" isə bu qələbədən sonra xal ehtiyatını 19-a yüksəltdi və liderliyini davam etdirir.

Qeyd edək ki, Naxçıvan təmsilçisi növbəti görüşünü noyabrın 3-də Qusarda "Şahdağ"a qarşı keçirəcək.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 993